RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 180 (8496) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin antiböhran strategiyası effektiv nəticə verir

## Azərbaycan iqtisadiyyatın tənəzzülü fonunda heç bir maliyyə qurumundan dəstək almadan qlobal böhranla öz gücünə mübarizə aparır

2020-ci il dünya iqtisadiyyatının ciddi tənəzzül ili kimi tarixə düşdü. Çünki qlobal pandemiya təhlükəsinin ortaya çıxması dünya iqtisadiyyatını adət edilməmiş vəziyyətlərlə üz-üzə qoydu. Beynəlxalq ticari əlaqələr dayandı, logistika fəaliyyətlərində məhdudiyyətlər meydana çıxdı, demək olar bütün ölkələrdə turizm sektoru çöküş dövrünə qədəm qoydu, hava, quru yollarının bağlanması biznes əlaqələrini qopmuş vəziyyətə gətirdi. İqtisadiyyat qeyri-müəyyən müddətdə iflic duruma düşdüyü üçün mütəxəssislər 2020-ci ili "itirilmiş il" adlandırırlar.

### Dünyanın əksər ölkələrində getdikcə iqtisadi tənəzzül dərinləşir

Qlobal böhranın getdikcə daha da dərinləşməsi postpandemiya dövründə ölkələrin iqtisadi durumunun kifayət qədər gərginləşəcəyini deməyə əsas verir. Beynəlxalq Valyuta Fondunun yaydığı məlumatda da qeyd edilir ki, dünya iqtisadiyyatı gözlənildiyindən daha ləng bərpa olunur və dərin qeyri-müəyyənlik hökm sürür. Pandemiyanın yaratdığı iqtisadi şoklar fonunda bu il dünya iqtisadiyyatının 5 faiz azalacağı qeyd edilir.

Göründüyü kimi, bəşəriyyəti çətin sınaq qarşısında qoyan pandemiya makroiqtisadi siyasətdən tutmuş qlobal ticarətədək bütün sahələrə mənfi təsirini göstərməklə böyük problemlər yaradır.

Bu günlərdə "Pacific Investment Management"in qlobal iqtisadiyyat üzrə müşaviri Ioaxim Fels bildirib ki, tezliklə dünyanın əksər ölkələrində tənəzzül başlayacaq: "İnkişaf etmiş ölkələrin hökumətləri pandemiya dövründə iqtisadiyyatı mümkün qədər normal vəziyyətə gətirmək üçün trilyonlarla dollar xərclədilər. Bunun sayəsində avqust ayında ABŞ-da işsizlik kəskin şəkildə azaldı və mənzil bazarındakı vəziyyət yaxşılaşdı". Müşavir əlavə edib ki, xərclənən vəsaitlər hesabına Çin iqtisadiyyatı bərpa olundu, Almaniyada istehsal artdı. Ancaq proqnozlara görə, ilin sonunadək bu mövqeyi qoruyub saxlamaq asan olmayacaq.

Ardı 2-ci səh.

# Azərbaycanın təhsil infrastrukturu müasirləşir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına məktəbdə yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, 1974-cü ildən fəaliyyətdə olan məktəbdə, ümumilikdə, 1700-ə yaxın şagird təhsil alır.

Ardı 2-ci səh.

# İran Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edib.

Ardı 2-ci səh.

# Azərbaycan pandemiya dövründə ortaya yaxşı nümunələr qoyur

## Yumşalmalara sürətli keçid zamanında görülən məqsədyönlü tədbirlərin nəticəsidir

Hazırda dünyada koronavirusa yoluxma hallarının sayı 27 milyonu keçib, ölüm sayı isə 8 yüz mindən çoxdur. Ən çox yoluxma hadisəsi ABŞ-da qeydə alınıb, sonrakı yerlərdə isə Braziliya və Hindistan gəlir.

2020-ci il başlayandan COVID -19-a qarşı əlaqədar qurumlar, dövlətlər tərəfindən mübarizə aparılsa da, hələlik onu yox etmək mümkün olmayıb. Yer üzündə koronavirus var-gəl etməkdə davam edir. Buna görə də dünya indi koronavirusdan qapanaraq qorunmaq yox, pandemiyanın şərtlərinə əməl edərək virusla bərabər yaşamaq məcburiyyətində qalıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, əgər infeksiya ilə mübarizə üzrə məqsədyönlü və yoxlanılmış addımlar atılsa, dövlətlər koronavirus pandemiyası ilə əlaqədar təcridetmə tədbirlərinin təkrar tətbiqindən qaça bilər.

O, bir çox ölkələrdə özünü təcridetməni ağır nəticələrə gətirib çıxaran "düzxətli alət" kimi qiymətləndirib. ÜST rəhbəri qeyd edib ki, məqsədyönlü tədbirlərin uyğunluğu olacağı təqdirdə gələcəkdə özünütəcrid etmədən qaçmaq olar.

Gebreyesus vurğulayıb ki, dövlətlər dörd əsas vəzifəni yerinə yetirməlidirlər: - kütləvi tədbirləri keçirməkdən çəkinmək, insanların özünü və başqalarını digər infeksiyalardan qoruması imkanını təmin etmək, diqqəti sağlamlığın qorunmasının baza məsələlərinə cəmləmək və əhalinin zəif qruplarını koronavirusdan qorumaq.

### Azərbaycanda həyat normal məcraya yönəlir

Əminliklə demək olar ki, Azərbaycan pandemiya ilə mübarizədə indiyə qədər ortaya çox ciddi nəticələr, nümunələr qoyub.

Ardı 5-ci səh.



# Dünya sularında Azərbaycanın yeni gəmiləri üzəcək

Hazırda dünyada daşınan yüklərin təqribən 90 faizi dəniz yollarının payına düşür. Su yolları ilə ən müxtəlif təyinatlı yüklər daşınır. Dənizlərdə və okeanlarda dalğaları yara-yara üzən gəmilər demək olar ki, hər gün qlobal iqtisadiyyata öz töhfəsini verir. Gəmilər həm də çoxsaylı sərnişinləri mənzilbaşına çatdırırlar. Azərbaycan gəmiləri də ölkənin sosial-iqtisadi inkişafına xidmət edir.

Cari ilin yanvar-iyul aylarında dəniz nəqliyyatı ilə, ümumilikdə, 543,7 min ton yük daşınıb ki, bunların da dəyəri 315,6 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, yeddi ayda dəniz nəqliyyatı ilə ixrac edilən 185,2 min ton yükün dəyəri 57,4 milyon dollar olub. Bu nəqliyyat növü ilə idxal olunan yüklərin həcmi 358,4 min tondan çox, dəyəri isə 258,1 milyon dollar təşkil edib.

İyul ayında dəniz nəqliyyatı ilə, ümumilikdə, 72 min 877 ton yük daşınıb. Bu yüklərin dəyəri 62,4 milyon dollar olub. Həmin ay ərzində dəniz nəqliyyatı ilə ixrac edilən 18,7 min ton yükün dəyəri 6 milyon dollar təşkil edib. İdxal edilən yüklərin həcmi 54 min 135 ton, dəyəri 56,3 milyon dollar olub.

Ardı 6-cı səh.

# Azərbaycan COVID-19-la mübarizədə qalib çıxacaq ilk ölkələrdən olacaq

## Prezident İlham ƏLİYEV: "Əminəm ki, birgə səylər nəticəsində... biz bu ağır vəziyyətdən az itkilərlə çıxacaq və daha tez bir zamanda normal, adi həyata qayıdacağıq"

Artıq neçə vaxtdır koronavirus pandemiyası alışdığımız adi həyat tərzini dəyişdirmiş və biz ağla batmayan qadağalarla üzləşmək məcburiyyətində qalmışıq. COVID-19 ən müqəddəs insani dəyərlərə hücum etmiş, hamımızı qorxunun, vahimənin, xofun əsirinə çevirmişdir. Artıq yeni münasibətlər sistemi, fərqli davranışlar modeli gündəmə gəlmişdir.

Yalnız güclülər qalib gələcəklər, amma onların da içində çökənlər, məğlubiyyətlə üzləşənlər olacaq. Kim təmkinli olacaqsa, müdrik hərəkət edəcəksə, səhv buraxmayacaqsa, o da xalqını təhlükələrdən uzaqlaşdıracaq, ölkəsini iqtisadi fəlakətlərin çəngindən xilas edəcək.

Bu baxımdan Azərbaycan Prezidentinin çevik addımları və ciddi tələbkarlığı pandemiyanın ağır fəsadlarının qarşısını almağa imkan verir. Karantin qaydalarının sərtləşdirilməsinə baxmayaraq, ölkədə iqtisadiyyatın çökməməsi və sahibkarlara dəstək üçün mühüm qərarlar qəbul olunur. Eyni zamanda dövlət quruculuğu istiqamətində, korrupsiya ilə mübarizədə daha sərt mövqe nümayiş etdirilir, dəqiq və düşünülmüş islahatlar bütün istiqamətlərdə geniş vüsət alır.

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videformat çərçivəsində iştirak edən Prezident İlham Əliyev çıxışında koronavirusla mübarizədə görülən işləri belə dəyərləndirmişdir: "Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası - "Yeni klinika" açılmışdır. "Yeni klinika"da çarpayıların sayı 600-ə yaxındır. Hazırda təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir".

Ardı 5-ci səh.

# Azərbaycanın təhsil infrastrukturu müasirləşir

*Əvvəli 1-ci səh.*

Onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Şagirdlərin təxminən yarısı ikinci növbədə dərsə gəlirdi. Böyük sıxlıq var idi. Yeni korpus bu problemi aradan qaldıracaq.

Dördmərtəbəli yeni korpus 840 şagird yerlikdir. Burada kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar var. Bütün otaqlar elektron vasitələrlə və proyektorlarla təchiz olunub.

Məktəbin şagirdləri də uğurları ilə fərqlənirlər. Onlar Rumıniyada, Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar.

Təhsil ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev məktəbin direktoru Aygün Əzizovaya dedi:

- Şagirdlərə və valideynlərə mənim salamımı çatdırın.

Prezident İlham Əliyevin 251 nömrəli məktəblə tanışlığı təkcə təhsil ocağının kollektivi üçün deyil, ətrafda yaşayan sakinlər üçün də yaddaqalan oldu. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlət başçısını salamladılar.

Beləliklə, növbəti məktəbin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.











# İran Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Seyid Abbas MUSƏVİ** dedi:

- Cənab Prezident, İran İslam Respublikasının fövqəladə və səlahiyyətli səfiri kimi etimadnaməmi və sələfimin geri çağırılma məktubunu Zati-alinizə təqdim etmək mənim üçün şərəfdir. Eləcə də icazə verin İran İslam Respublikasının Prezidenti doktor Həsən Ruhaninin ən səmimi salamlarını Sizə çatdırım. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Hörmətli cənab səfir, mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Xahiş edirəm, ilk növbədə, mənim səmimi salamlarımı dostum və qardaşım Prezident cənab Ruhaniyə çatdırasınız.

Sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, siz öz fəaliyyətinizlə iki ölkə arasındakı əlaqələrə dəyərli töhfə verəcəksiniz və bundan sonra da əlaqələrimiz uğurla inkişaf edəcək.

Bildiyiniz kimi, son bir neçə il ərzində Prezident Ruhani ilə bizim 10-dan çox görüşümüz olubdur. Bu görüşlər əsnasında müzakirə olunan bir çox məsələlər və qəbul edilmiş qərarlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır. Bir çox sənədlər imzalandı. Bu sənədlər demək olar ki, bütün sahələri əhatə edir. Biz həmişə beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizin mövqeyini dəstəkləyirik. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) - bu təşkilatlar çərçivəsində həmişə həmrəylik göstəririk.

Təxminən iki ay bundan əvvəl Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təcavüzü ilə əlaqədar Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın mövqeyini və haqq işini dəstəkləyən, Ermənistanın addımlarını pisləyən qətnamələr qəbul etmiş və açıqlamalar vermişdir. İran İslam Respublikası bu iki təşkilatın fəal üzvü kimi bu mövqeyə qoşularaq növbəti dəfə Azərbaycana öz dəstəyini göstərmişdir. Buna görə mən sizə minnətdaram.



Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşüb. Azərbaycan vətəndaşlarının qaçqın-köçkün vəziyyətinə düşməsi məhz bu işğalın nəticəsidir. Bizə - azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb, Xocalı soyqırımı törədilib. Bizim tarixi-dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Dini abidələrimiz təhqir edilib. İşğal edilmiş ərazilərdə məscidlərimiz ermənilər tərəfindən dağıdılıb və bəzi məscidlərdə hətta onlar heyvan saxlayırlar. Bu çirkin əməlləri əks etdirən bir çox video və foto sənədlər, sübutlar vardır. Onları internetdə tapmaq olar. Bu, təkcə bizə qarşı yox, bütün müsəlman dünyasına qarşı edilən cinayətdir.

Bildiyiniz kimi, Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verir və böyük səylər göstərir. Azərbaycan İslam aləminin birləşməsi və bəzi ölkələr arasında mövcud olan problemlərin həlli istiqamətində hər zaman öz əlavə səylərini göstərməyə hazırdır.

Onu da bildirməliyəm ki, bizim ölkələrimiz, eyni zamanda xarici siyasət istiqamətində üçtərəfli əməkdaşlıq formatlarında da fəal iştirak edir. Artıq neçə ildir ki, Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlıq formatı mövcuddur və bu format çox səmərəlidir.

Qonşu ölkələr arasındakı əlaqələr və bu əlaqələrin inkişafı bölgədə sabitliyin, sülhün təminatçısıdır. Xəzər dənizinin hüquqi statusunun, nəhayət, öz həllini tapması bütün Xəzəryanı ölkələrin niyyətini göstərir, bizim siyasətimizi göstərir və bu ölkələr arasındakı dostluğu göstərir.

İkitərəfli münasibətlərimizə gəldikdə, bir daha demək istəyirəm ki, bizim münasibətlərimiz sürətlə inkişaf edir və yüksək səviyyəyə qalxıbdır. Prezident cənab Ruhani ilə iyulun sonunda mənim telefon danışığım olubdur. Bir çox önəmli məsələlər müzakirə olundu və razılığa gəldik ki, bizim müvafiq hökumət üzvləri bir-biri ilə bu pandemiya dövründə videokonfranslar formatında görüşlər keçirsinlər və artıq bir çox görüşlər keçirildi. Bunun çox böyük önəmi var. Çünki biz istəmirik ki, vaxt itirək. Çünki pandemiya təbii ki, işimizə müdaxilə etmişdir.

Əminəm ki, gələcək illərdə bu gün reallaşmaqda olan önəmli nəqliyyat və enerji layihələri daha da geniş miqyas alacaq. Bildiyiniz kimi, "Şimal-Cənub" nəqliyyat dəhlizi təkcə bizim ölkələrimizi yox, bütün Avrasiya məkanını birləşdirə bilər. Həm İran, həm Azərbaycan bu dəhlizin fəaliyyətə başlaması və gələcək inkişafı işində çox böyük səylər göstərir. Bütün başqa sahələrdə - sərmayə qoyuluşu, elektroenergetika sahələrində və digər sahələrdə yaxşı nəticələr var. O cümlədən hərbi-texniki sahədə də əlaqələrimiz artıq böyük tarixə malikdir və yeni razılaşmalar əldə edilib. Əminəm ki, bu sahədə də bizim əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz, sizi bir daha salamlayıram.

Səfir **Seyid Abbas MUSƏVİ:** Məni bu gün qəbul etdiyinizə görə çox təşəkkür edirəm.

İkitərəfli münasibətlər haqqında Siz geniş danışdınız və mən bu barədə əlavə bir söz deməyə lüzum görmürəm. Mən cənab doktor Ruhaninin səmimi salamlarını Sizə çatdırıram. Eləcə də bizim Kabinet üzvlərinin, xüsusilə də Xarici İşlər nazirimizin salamlarını çatdırıram.

Mən Sizi əmin edirəm ki, İran İslam Respublikasının bütün rəhbər şəxslərinin iradəsi və istəyi ikitərəfli münasibətləri daha da inkişaf etdirmək və möhkəmləndirməkdir. Allaha şükürlər olsun ki, Sizin müdrikliyiniz sayəsində, eləcə də İran İslam Respublikasının rəhbərlərinin müdrikliyi sayəsində iki ölkə arasında münasibətlər gündən-günə inkişaf etməkdədir.

İran İslam Respublikasının xarici siyasətində qonşu ölkələrlə, xüsusilə də Azərbaycan Respublikası ilə münasibətlər önəmli rola malikdir. Bizimlə qonşu olan 15 ölkə var. Bu ölkələr arasında biz Azərbaycanla xüsusi münasibətlərə malikik. Mənim missiyam bu iki dost, qardaş və müsəlman ölkələr arasında münasibətləri daha da möhkəmləndirməkdir. Mən ölkələrimizin münasibətlərinin genişləndirilməsində hər hansı bir maneə görmürəm. Sizin, eləcə də Kabinet üzvlərinin dəstəyi ilə bu münasibətlər gündən-günə inkişaf etdiriləcək.

İran İslam Respublikasının xalqı və dövləti Sizin mart ayında İrana səfərinizi səbirsizliklə gözləyirdi. Lakin təəssüflər olsun ki, pandemiyaya görə bu səfər baş tutmadı. İran xalqı və İran dövləti hələ də bu səfəri səbirsizliklə gözləyir və mən yenidən bu dəvəti Sizə çatdırıram.

Bizim qonşuluq, dostluq münasibətlərimiz xüsusi münasibətlərdir və heç bir üçüncü qüvvə bu münasibətlərə xələl gətirə bilməz. İran İslam Respublikası Azərbaycan Respublikasının işğal olunmuş əraziləri məsələsində, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli və haqq mövqeyini dəstəkləyir. Biz hesab edirik ki, bu münaqişə beynəlxalq qanunlar, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll olunmalıdır.

Siz də qeyd etdiyiniz kimi, bizim üçtərəfli və dördtərəfli regional əməkdaşlığımız bundan sonra da davam edəcək. Regional və beynəlxalq təşkilatlar çərçivəsində bizim ortaq mövqelərimiz var və bir-birimizin mövqelərini dəstəkləməyə davam edəcəyik. Mən əminəm ki, Sizin müdrikliyiniz sayəsində hazırda yüksək səviyyədə olan münasibətlərimiz bundan sonra da inkişaf edəcəkdir. İnşallah, tezliklə Sizin və cənab Prezident Həsən Ruhaninin iştirakı ilə keçiriləcək videokonfransda biz münasibətlərimizin daha da inkişaf etdirilməsinin şahidi olacağıq.

## Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri cənab Stevo Pendarovskiyə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Şimali Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2020-ci il*

# İlham Əliyevin antiböhran strategiyası effektiv nəticə verir

*Əvvəli 1-ci səh.*

Bütün ölkələrdə iqtisadiyyatı stimullaşdırmaq üçün səylərin artırılması tələb ediləcək.

Bu cür vəziyyətin nə qədər davam edəcəyini proqnoz etmək mümkün deyil. Ona görə də hesab edilir ki, pandemiyanın qlobal iqtisadiyyatda yaratdığı qeyri-müəyyənlik dünya ölkələrində iqtisadi tənəzzülü davamlı edəcək.

Son statistik göstəricilərə nəzər yetirsək görərik ki, qlobal böhran səbəbindən ABŞ iqtisadiyyatı 31,7 faiz, Böyük Britaniya - 24, İspaniya - 22,1, Fransa - 19,2, Türkiyə - 9,9, Rusiya iqtisadiyyatı isə 8,5 faiz azalıb.

İqtisadçılar hesab edirlər ki, bu, son 10 ildə ilk belə hadisədir. Göründüyü kimi, həm ABŞ-da, həm də Avropanın bir sıra digər ölkələrində iqtisadiyyatda geriləmə ikirəqəmli həddədir.

## Azərbaycan iqtisadiyyatı - 7 ayda cəmi 2,8 faiz azalma

Əlbəttə, qlobal iqtisadiyyat elə quruluşa malikdir ki, bütün ölkələr bir-biri ilə zəncirvari əlaqədədir. O səbəbdən də digər ölkələr kimi, Azərbaycan iqtisadiyyatında da azalma labüd idi. Ancaq Avropa dövlətlərindən fərqli olaraq ölkəmizdə iqtisadi tənəzzül çox aşağı səviyyədədir - 2,8 faiz.

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı zamanı Prezident İlham Əliyev də bu məsələyə toxunaraq vurğuladı ki, pandemiya ilə mübarizə tədbirləri ölkə iqtisadiyyatına təsirsiz ötüşməyib. Ancaq başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə vəziyyət daha yaxşıdır: "Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq, bu, yaxşı göstəricidir".

Təbii ki, pandemiya şəraitində mövcud iqtisadi azalma məqbul hesab olunur. İqtisadi azalmanın optimallaşdırılması postpandemiya dövründə yenidən iqtisadi aktivlər əldə edilməsinə yönəldilib.

Hər zaman vətəndaş rifahını, insan sağlamlığını ən önəmli məsələ kimi nəzərdə tutan cənab İlham Əliyev pandemiyanın iqtisadiyyata təsirlərinin minimuma endirilməsi siyasətini davam etdirir. Azərbaycan heç bir maliyyə qurumundan dəstək almadan qlobal böhranla öz gücünə mübarizə aparır.

Dünyada geoiqtisadi risklərin yüksəlməsi və problemlərin dərinləşməsi, neftin qiymətindəki qeyri-sabitlik fonunda Azərbaycan iqtisadiyyatının böyük dövlətlərə nisbətən az geriləməsi bir daha göstərir ki, iqtisadi prioritetlərin əvvəlcədən müəyyən olunması və bu hədəflərin məqsədyönlü şəkildə reallaşdırılması çox önəmlidir.

## Azərbaycan iqtisadiyyatı qarşısında duran iki əsas çağırış

Azərbaycanın iqtisadi qüdrəti dövlətin istənilən böhranla mübarizə aparmasına əlverişli imkan yaradır. Əgər belə olmasaydı, digər ölkələr kimi, Azərbaycan iqtisadiyyatı da tamam çökmüş durumda olardı. Lakin Azərbaycan pandemiya şəraitində öz resursları hesabına və xaricdən dəstək olmadan böhranı idarə edir. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın sınaqlara və çətinliklərə sinə gərməsi, əlbəttə ki, cənab İlham Əliyevin rəhbərliyi ilə gücləndirilmiş milli iqtisadiyyatın imkanlarına əsaslanır.

Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında iki əsas çağırış var - pandemiyanın sosial-iqtisadi təsirlərinin azaldılması və milli iqtisadiyyatın postpandemiya dövründə inkişafı.

Ölkədə həyata keçirilən antiböhran tədbirləri, koronavirusa qarşı mübarizədə müsbət dinamikanın əldə edilməsi təsdiq edir ki, cənab İlham Əliyev pandemiyanın sosial-iqtisadi təsirlərinin azaldılması sahəsində sistemli siyasət həyata keçirir. Paralel olaraq milli iqtisadiyyatın postpandemiya dövründə inkişafına dair hazırlıqlar görülür. İqtisadiyyatın liberallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və digər islahatlar bunu deməyə əsas yaradır.

Bir sözlə, bir tərəfdən, dövlət antiböhran tədbirləri həyata keçirməklə pandemiyanın sosial-iqtisadi təsirlərini minimuma endirir, digər tərəfdən də, postpandemiya gündəliyini formalaşdırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Türkiyənin Prezident Administrasiyası "Bir millət, iki dövlət" adlı sənədli film hazırlayıb

Türkiyənin Prezident Administrasiyası Azərbaycan-Türkiyə qardaşlığı və Tovuz hadisələri barədə "Bir millət, iki dövlət" adlı sənədli film hazırlayıb. AZƏRTAC xəbər verir ki, filmdə Azərbaycan və Türkiyə prezidentlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çıxışları, işğalçı Ermənistanın iyulun 12-də Tovuz istiqamətində törətdiyi genişmiqyaslı təxribatdan sonra rayondan görüntülər, bir sıra rəsmi şəxslərin və mülki vətəndaşların fikirləri yer alıb.














Reportajda qeyd olunub ki, Ermənistanın atəşkəsi pozduğu 12 iyul tarixində Azərbaycan ilə Ermənistan arasında gərginlik yenidən artdı. Ermənistanın ağır artilleriya vasitələrindən açdıqları atəş nəticəsində Tovuz rayonundakı bir qəsəbədə bir çox ev məhv edilib.

Müdafiə Nazirliyinin Beynəlxalq hərbi əməkdaşlıq idarəsinin rəisi, general-mayor Hüseyn Mahmudov bildirib ki, Tovuz rayonu Azərbaycan üçün strateji cəhətdən çox əhəmiyyətlidir. Çünki bura yüksəkliklər və mövqelərimiz burada yerləşdirilib. Düşmən ətrafdakı bütün kəndləri təzyiq altında saxlamaq üçün buranı ələ keçirmək istədi. Bu yüksəklikdən bölgədəki müdafiəmizin dərinliklərinə başqa bir hücum başlada bilərdilər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev reportajda Ermənistanın hücumlara Tovuz rayonundan başlamasının səbəblərini açıqlayıb. Hikmət Hacıyev bildirib ki, ermənilərin bəzi strateji hədəfləri var idi, ancaq buna nail ola bilmədilər. İlk hədəfləri Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına, Dağlıq Qarabağ probleminə yönələn diqqəti yayındırmaq idi. İkincisi, Azərbaycanın şərq-qərb istiqamətində strateji kommunikasiya xətlərinə təhdid yaratmağa çalışırdılar.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Elnur Əliyev qeyd edib ki, əgər Azərbaycanın xəritəsinə baxsanız, bu bölgənin yalnız Azərbaycan üçün deyil, daha geniş region üçün çox önəmli olduğunu anlayacaqsınız. Azərbaycan bölgədə strateji layihələr həyata keçirib və bunların onurğa sütunu olan boru kəmərləri, xüsusilə neft və qaz boru kəmərlərinin hamısı Azərbaycan və Ermənistan sərhədinə çox yaxın bir bölgədən keçir.

Azərbaycanın Tovuz rayonundan olan "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu doğma kəndinin də bombalandığını vurğulayaraq bildirib: "Kəndimiz Ermənistan ilə sərhədboyu ərazidə yerləşdiyi üçün otuz ildən çoxdur atəş altındadır. İndiyə qədər kəndimizdən 30 mülki şəxs, o cümlədən müəllimlər, kəndlilər həlak olub. Evlərə bomba düşməsi nəticəsində şəhid olanlar var".

Tovuz hadisələri zamanı öldürülən sakinin qızı Zərnişan Gözəlova bildirib ki, iyulun 12-də ermənilər tərəfindən atəşkəs pozuldu. İyulun 14-də səhər evimizə ermənilər tərəfindən atılan mərmi düşdü və evimizdə partlayış oldu. Nəticədə atam həlak oldu. Atam mülki şəxs idi, hərbçi deyildi.

General-mayor Hüseyn Mahmudov vurğulayıb ki, iyulun 12-dən etibarən Tovuz rayonunda baş verən bu hadisənin ilk anından Türkiyənin böyük dəstəyini hiss etdik.

Süjetdə Prezident İlham Əliyevin "Bizi ilk dəstəkləyən və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermişdir" sözləri təqdim olunub.

Həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Türkiyə qədim dostluq bağları və qardaşlıq münasibətləri olan Azərbaycanın haqqına, hüququna, torpaqlarına qarşı yönəlmiş hər bir hücumun qarşısında yer almaqda əsla tərəddüd etməyəcək" fikirləri yer alıb.

Rauf Arifoğlu: "Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğanın ermənilər üçün çox sərt və açıq çıxışı oldu. Bunun ardınca isə ordunun Azərbaycana gəlişi, "Türk şahinlərinin Azərbaycan səmasında qalxması önəmli bir hadisə idi. Bu təlimlər elə bir kritik məqama rast gəldi ki, Azərbaycan xalqının, xüsusən bölgədə yaşayan insanların ürəklərinə sanki sərin su səpdi".

Süjetdə Azərbaycan və Türkiyə ordularının möhtəşəm birgə hərbi təlimlərindən görüntülər də təqdim olunub.

General-mayor Hüseyn Mahmudov deyib ki, Azərbaycanın təhlükəsizliyi baxımından Türkiyənin önəmini qeyd etməmək qeyri-mümkündür. Türkiyə bu məsələdə əvəzolunmaz rol oynayır və bu, bizə güc və ərazilərimizi zəbt etməyə çalışan düşmənin cəhdlərinə qarşı döyüşmək cəsarəti verir. Eyni zamanda əməliyyat keçirmək və işğal altındakı torpaqlarımızı azad etməyə hazır olmaq üçün bizə son dərəcə cəsarət verir.

Birgə hərbi təlimlərin önəmini vurğulayan Hikmət Hacıyev bildirib ki, Türkiyə və Azərbaycanın birgə hərbi təlimləri simvolik olaraq emosional və praktiki hissədən ibarətdir. 1918-ci ildə türk əsgərləri qardaşlarına dəstək olmaq üçün Azərbaycana gəldi. Türkiyə üçün çətin bir dövr idi, Birinci Dünya müharibəsi davam edirdi. Buna baxmayaraq, türk əsgərləri erməni daşnaklarının və bolşeviklərin törətdikləri soyqırımını dayandırmaq məqsədilə Azərbaycana qardaş dəstəyi göstərmək üçün gəldilər.

Rauf Arifoğlu bildirib ki, 1918-ci ildə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycana gəldi. O zaman da rus və erməni silahlı dəstələri Bakıda qətliam törətmiş, 30 min Azərbaycan türkünü qətlə yetirmişdilər. Türklər gəlib əhalini xilas etdilər, Nuru Paşanın ordusu 1100 şəhid verdi.

Hikmət Hacıyev bildirib ki, 100 il sonra - 2018-ci ildə iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan, Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələri Bakının mərkəzində birlikdə addımladılar.

Süjetdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın aşağıdakı fikirləri təqdim olunub: "Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir. Biz böyük şair mərhum Bəxtiyar Vahabzadənin gözəl ifadəsi ilə,

*Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu.*
*O da ulu, bu da ulu,*
*Azərbaycan-Türkiyə".*

Prezident İlham Əliyev: "Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulamaq istəyirəm. Bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir".

Hikmət Hacıyev qeyd edib ki, Türkiyə və Azərbaycan əməkdaşlığı, tərəfdaşlığı və qardaşlığı hər şeydən əvvəl iki ölkə arasındakı etnik qohumluq münasibətlərindən irəli gəlir və buna əsaslanaraq ölkələrimiz hər sahədə strateji və genişmiqyaslı əməkdaşlıq edir. Hər şeydən əvvəl bu əməkdaşlıq Azərbaycan və Türkiyə xalqlarının maraqlarına xidmət edir.

Elnur Əliyev: "Azərbaycan xalqı üçün Türkiyə ilə hər cür əməkdaşlıq sanki ölkə daxilində bir əməkdaşlıq etmək kimi təbii haldır".

Hikmət Hacıyev: "Azərbaycan-Türkiyə əməkdaşlığı regionda sülhə, sabitliyə və inkişafa geniş miqyasda töhfə verməkdədir. Nümunə olaraq deyə bilərəm ki, TANAP və TAP layihələri Xəzər dənizi, Cənubi Qafqaz, Qara dəniz regionu, Gürcüstan, Balkan ölkələrini, Avropa ölkələrini birləşdirir və nəhayət, Avropa İttifaqının enerji təhlükəsizliyinə töhfə verir. Türkiyə-Azərbaycan əməkdaşlığı neft və qaz boru kəmərlərini İpək yolunun şərqi ilə qərbini birləşdirən marşrutu əhatə edir, həmçinin Orta Asiya və Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə əlaqələndirən bir yolu özündə ehtiva edir".

Elnur Əliyev: "Azərbaycan ilə Türkiyənin əməkdaşlığı yalnız Qafqaz bölgəsi üçün deyil, daha geniş coğrafi ərazi üçün həyata keçirilən bütün strateji layihələri həyata keçirməyə imkan yaradır".

Hikmət Hacıyev: "Azərbaycan və Türkiyə ən yaxşı rifahın paylaşılan rifah olduğuna inanır. Bütün bu amillər regional sülhə və təhlükəsizliyə töhfə verməkdədir.

Burada ortaya bir sual çıxır: Ermənistan bu proseslərin bir hissəsi ola bilərmi? Cavab: "bəli". Ancaq Ermənistan işğalçılıq siyasətinə son verməlidir, qonşuları ilə, xüsusilə də Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmalıdır".

Rəcəb Tayyib Ərdoğan: "Dağlıq Qarabağın işğalından bəri bu bölgədə davam edən gərginliyin Ermənistanın düşünülmüş və ardıcıl şəkildə hücumları səbəbindən münaqişəyə çevrilməsi ilə bağlı narahatlığımızı bildiririk".

Rauf Arifoğlu: "Türkiyənin bütün platformalarda, təkcə Qarabağ məsələsində deyil, bütün məsələlərdə Azərbaycanın yanında olduğunu hər birimiz bilirik və ona görə də xoşbəxtik. Bu, yalnız on milyon olmadığımızı izah edən bir həqiqətdir".

Elnur Əliyev: "İki ölkənin liderlərinin çox məşhur və tarixi bir kəlamı var: "Bir millət, iki dövlət". Bu ifadə tarixi həqiqəti, xalqlarımızın mədəniyyətini və tarixini əks etdirir. Əslində, biz bir xalqıq və bu əlaqələr tarix boyunca formalaşaraq bugünkü səviyyəyə gəlib çatıb. Əslində, sərhədin - Türkiyə ilə Azərbaycan arasındakı sərhədin harada olduğunu anlamaq çətindir".

Hikmət Hacıyev: "Biz bir millət, iki dövlətik. Bu, hər bir azərbaycanlı üçün çox emosional bir ifadədir və məncə, hər bir Türkiyə vətəndaşı üçün də eynidir. Şüarımıza əsasən gələcəyə yönəlmiş çox geniş perspektivimiz var və bu istiqamətdə irəliləyirik".

# Hikmət HACIYEV: "Azərbaycan ilə Türkiyə "bir millət, iki dövlət" şüarı ilə hər zaman bir-birinin yanındadır"



"Azərbaycan ilə Türkiyə "bir millət, iki dövlət" şüarı ilə hər zaman bir-birinin yanındadır. Qardaş Türkiyənin iqtisadiyyatdan xarici siyasətədək hər sahədə əldə etdiyi uğurlara Azərbaycan ürəkdən sevinir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, ilk növbədə, hər iki ölkənin qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir. Bu baxımdan hər iki ölkənin dövlət və özəl media qurumlarının yaxın əməkdaşlığı bu əlaqələrin daha da güclənməsinə əhəmiyyətli dərəcədə fayda verəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İstanbulda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və bir sıra dövlət və media qurumlarının rəhbər şəxsləri ilə görüşündə bildirib.

Hikmət Hacıyev televiziyadan kino sektorunadək bütün sahələr üzrə birgə layihələrin həyata keçirilməsinin, mütəxəssis mübadilə proqramlarının hazırlanmasının, eləcə də texnologiya sahəsində əməkdaşlığın hər iki ölkəyə qarşı həyata keçirilən qaralama kampaniyası ilə mübarizədə də əhəmiyyətli rol oynayacağını bildirib.

Dünən olduğu kimi, bu gün də Türkiyə ilə Azərbaycanın "bir millət, iki dövlət" şüarı altında hərəkət etdiyini, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin bu anlayışı, sadəcə, sözdə deyil, əməldə də dünyaya nümayiş etdirdiklərini deyən Fəxrəddin Altun bütün sahələr üzrə əlaqələrin, o cümlədən beynəlxalq və regional mövzularda iki ölkənin qurumları arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. F.Altun ölkələrimiz arasında qardaşlıq əlaqələrinin son illər artan əməkdaşlıq layihələri ilə daha da möhkəmləndiyini bildirib. O, Türkiyə ilə Azərbaycan arasında media əlaqələri və ictimai diplomatiya sahəsində əməkdaşlığın genişləndirilməsinin, bu sahələrdəki imkanların birləşdirilməsinin hər iki ölkə üçün mühüm rol oynadığını diqqətə çatdırıb.

Doğru məlumatın sürətlə yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasından tutmuş, yalan xəbər və dezinformasiyaya qarşı mübarizəyə qədər geniş bir sahədə Türkiyə ilə Azərbaycan arasında ortaq fəaliyyət göstərəcəklərini söyləyən F.Altun deyib: "Bu nöqtədə Türkiyə-Azərbaycan Media Platforması yaradılması məsələsində razılığa gəldik. Bu platforma vasitəsilə iki ölkə mediasının inteqrasiya olunmuş şəkildə hərəkət etməsi, xalqların məlumatlandırılması məsələsində səmərəli fəaliyyət göstərilməsi, xüsusilə sosial mediada yayılan dezinformasiyalar və ölkə xaricindən gələn qara piarlara qarşı mübarizədə vahid strategiyaların yaradılması məsələlərini müzakirə etdik".

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi Azərbaycanla Türkiyə arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılmasını genişləndirməkdir.

Görüşdə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Əhməd İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov, Türkiyə tərəfdən isə Prezident Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin sədr müavinləri Mehmet Zahid Sobacı və Çağatay Özdəmir, Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan və digər şəxslər iştirak ediblər.

Azərbaycan nümayəndə heyətini ölkəmizin Türkiyədəki səfiri Xəzər İbrahim və İstanbuldakı baş konsulu Nərminə Mustafayeva müşayiət edirlər.

# Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar

Azərbaycan və Türkiyə regionda çox gözəl inkişaf modeli yaradıblar ki, bundan başqa dövlətlər də faydalana bilərlər. Regionda sülhün bərqərar olması isə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmasından asılıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin nüfuzlu "Haber Global" telekanalında çıxışı zamanı bildirib.

Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində erməni təxribatı ilə bağlı suala cavabında Hikmət Hacıyev bunun məqsədli şəkildə törədildiyini, Azərbaycan-Türkiyə qardaşlığının, birgə əzmimizin bu planın qarşısını aldığını bildirib. "İyulun 12-də Ermənistan tərəfindən Tovuz rayonu istiqamətində Azərbaycana qarşı növbəti təxribat törədildi. Bu, Ermənistan-Azərbaycan silahlı qüvvələrinin təmas xəttindən 300 kilometr aralıda baş verən hadisə idi. Hadisənin nədən məhz Tovuzda baş verməsi ilə bağlı sual yaranır. Bunun bir neçə strateji səbəbi var idi. İlk növbədə, Ermənistanın məqsədi Azərbaycanın şərq-qərb platformasına, bizim qardaş Türkiyə ilə birgə həyata keçirdiyimiz TANAP və TAP kimi layihələrimizə bir təhlükə yaratmaq idi. Hədəflərin əsasında ərazi əldə etmək və həmin ərazidə nəzarəti ələ keçirmək də var idi. Eyni zamanda Ermənistan Qarabağ mövzusundan diqqəti yayındıraraq regionda yeni bir təhlükə mənbəyi yaratmağa çalışırdı. Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı işğal və təcavüzü otuz ildən çoxdur davam edir, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə birgə ətraf yeddi rayonu otuz ildir işğal altındadır. Həmin ərazilərdə etnik təmizləmə həyata keçirilib. Ermənistan tərəfindən beynəlxalq hüququn bütün norma və prinsipləri, BMT-nin Nizamnaməsi pozularaq Azərbaycana qarşı bu kimi əməllər törədilib. Bu azmış kimi, Ermənistan Azərbaycanla sərhəddə də təxribat törətdi", - deyə Prezidentin köməkçisi qeyd edib.

Ermənistan tərəfindən hər zaman təxribatın törədiləcəyinin gözlənildiyini qeyd edən Hikmət Hacıyev deyib ki, Tovuz hadisələrindən sonra Ermənistanın sistemli şəkildə silahlanması davam edir. Ermənistana 500 tondan artıq silah-sursat daşınıb. Bu silah-sursatın nə məqsədlə daşınmasına dair sualımıza biz hələ də cavabımızı ala bilməmişik. Bunu da açıq deməliyik ki, Rusiyanın aidiyyəti rəsmi orqanları qarşısında da bu məsələni qaldırmışıq. Lakin cavab ala bilməmişik.

Son zamanlar erməni diaspor təşkilatlarının qardaş Türkiyəyə və Azərbaycana qarşı genişmiqyaslı qaralama işi apardığını deyən Prezidentin köməkçisi onların bu məqsədlərinə nail ola bilmədiklərini qeyd edib: "Bizim birgə fəaliyyətimiz, həmçinin qardaş Türkiyə ilə media sahəsində əməkdaşlığımız onların bu kimi çirkin təbliğatlarının qarşısını aldı. Beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini dəstəkləyən bəyanatlar verdilər. Dünya media müstəvisində də Azərbaycanın haqq səsi eşidildi. Bu da onu göstərir ki, biz qardaş ölkələr olaraq birlikdə hərəkət edərək doğruları beynəlxalq təşkilatlara daha aktiv şəkildə çatdırmalıyıq".

Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri barədə danışan Hikmət Hacıyev bu təlimlərin illik plana uyğun olaraq həyata keçirildiyini, hərbi təcrübə baxımından çox faydalı olduğunu, eyni zamanda bu təlimlərin bölgədə sülhə, əməkdaşlığa və təhlükəsizliyə xidmət etdiyini bildirib. Türkiyə əsgərlərinin Azərbaycana gəlməsini yüksək qiymətləndirən Hikmət Hacıyev bunu 1918-ci il hadisələrində göstərilən qardaş dəstəyi ilə müqayisə edib: "Biz Türkiyə əsgərinin Azərbaycanda və ya Azərbaycan əsgərinin Türkiyədə olması ilə bağlı sərhəd qoymuruq. Çünki hər ikisi eyni vətəndir, biz bir millət, iki dövlətik. Lazım olan anda, lazımi yerdə bir-birimizə dəstək veririk. Xarici siyasətdə olduğu kimi, bu mövzularda da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Azərbaycanın Şərqi Aralıq dənizində baş verən hadisələrlə bağlı da Türkiyəyə dəstəyini vurğulamaq istəyirəm. Azərbaycan hər zaman tərəddüd etmədən qardaş Türkiyənin yanındadır və bunu Prezidentimiz İlham Əliyev də qeyd etdi. Türkiyənin bu günlər regional, beynəlxalq müstəvidə milli maraqları, xalqının mənafeyini nəzərə almaqla apardığı aktiv siyasəti görürük və bununla qürur duyuruq".

Türkiyənin Qara dənizdə kəşf etdiyi təbii qaz yatağı ilə bağlı fikirlərini bildirən Hikmət Hacıyev bunun Azərbaycanda sevinclə qarşılandığını vurğulayıb.

Aparıcının Ermənistan qadınlarının müharibəyə hazırlanması ilə bağlı sualına cavabında Hikmət Hacıyev bunun Azərbaycanda təəssüflə qarşılandığını, belə bir şeyin Azərbaycan mədəniyyətinə yad olduğunu qeyd edib, eyni zamanda bunun Ermənistanda insanlar arasında Azərbaycana, o cümlədən türk millətinə qarşı nifrət siyasətinin sübutu olduğunu vurğulayıb: "Biz yenə də Ermənistana və erməni xalqına üz tutaraq XXI əsrdə bu kimi çirkin təbliğatın qurbanı və keçmişin əsiri olmayaraq gələcəyə baxmağı tövsiyə edirik".

Hazırda Ermənistanda hökm sürən iqtisadi böhranın koronavirus pandemiyası dövründə daha da kəskinləşdiyini deyən Hikmət Hacıyev bildirib ki, istər Aprel döyüşləri, istərsə də Tovuz istiqamətində törədilmiş təxribat bütün dünyaya, o cümlədən Ermənistana göstərdi ki, onların qarşısında artıq peşəkar, güclü Silahlı Qüvvələri, xalqı ilə hökuməti arasında həmrəyliyi olan Azərbaycan var. Ermənistanın atdığı hər səhv addımın çətinlikləri erməni xalqının üzərinə düşür.

# Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib

Sentyabrın 7-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası idarə edən komitənin sədri Bəxtiyar Əliyev həmkarlarına qarşıdan gələn payız sessiyasında uğurlar arzulayıb.

Sonra 2020-ci ilin payız sessiyası üçün komitənin qanunvericilik işləri planı müzakirə edilib. Bəxtiyar Əliyev payız sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə danışıb. Qeyd edilib ki, qarşıdakı sessiyada komitədə "Ali təhsil haqqında" qanun layihəsi hazırlanacaq, digər vacib qanunlar üzərində iş davam etdiriləcək. İclasda komitənin iş planı təsdiqlənib.

Sonra komitə sədri "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədlə əlaqədar məlumatı birinci oxunuşda diqqətə çatdırıb. O, qanun layihəsinin "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" dövlət başçısının 2018-ci il 10 dekabr tarixli fərmanına uyğun olaraq hazırlandığını deyib. Sənədin valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıdığını vurğulayıb. Bildirilib ki, təklif olunan qanuna əsasən övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə, özəl ali və orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Onlayn iclasda Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də birinci oxunuşda müzakirə edilib.

Bildirilib ki, sözügedən sənədlərə təklif olunan dəyişikliklər "Təhsil haqqında" qanunda dəyişikliklər edilməsi barədə 12 iyun 2018-ci il tarixli və "Ümumi təhsil haqqında" 29 mart 2019-cu il tarixli qanunlara uyğunlaşdırma xarakteri daşıyır. Yeni sənədin pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olmayan şəxslərlə əmək müqavilələrinin bağlanmasına yol verilməməsi, bağlanmış müqavilələrə xitam verilməsi mexanizmləri, təsisçisi əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan təhsil müəssisəsi rəhbərinin müavininin Azərbaycan vətəndaşı olması, ümumi təhsillə bağlı normaların təkmilləşdirilməsi, günüuzadılmış qrupların təşkili qaydalarını müəyyən edəcək.

Sonra onlayn iclasda İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliklərə birinci oxunuşda baxılıb. Bildirilib ki, qanun layihəsi "Ümumi təhsil haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Məcəllənin 192-ci maddəsinə təklif edilən dəyişiklik qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə məsuliyyəti tənzimləyir.

Komitə üzvləri İsa Həbibbəyli, Eldar Quliyev, Musa Qasımlı, Anar İsgəndərov, Aqiyə Naxçıvanlı, Kamilə Əliyeva, Tamam Cəfərova, Afət Həsənova, Ceyhun Məmmədov, Fatma Yıldırım, Müşfiq Məmmədli, Pərvin Kərimzadə, Etibar Əliyev, Ülviyyə Ağayeva, Şahin Seyidzadə müzakirə edilən sənədlərlə bağlı fikirlərini bildiriblər.

Onlayn iclasın sonunda müzakirə edilən qanun layihələrinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin müxtəlif aspektləri müzakirə olunub

Sentyabrın 7-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Özbəkistan Xarici İşlər naziri Əbdüləziz Kamilov ilə telefon danışığı olub.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı nazirlər ikitərəfli əməkdaşlıq əlaqələrinin müxtəlif aspektləri üzrə fikir mübadiləsi aparıblar. İkitərəfli əməkdaşlığın inkişafı, o cümlədən pandemiyaya baxmayaraq ölkələr arasında ticarət dövriyyəsinin artdığı vurğulanıb.

Tərəflər həmçinin Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin Özbəkistan Respublikasının Müstəqil Dövlətlər Birliyində (MDB) hazırkı sədrlik dövründən irəli gələn məsələlər müzakirə olunub.

Telefon danışığı zamanı tərəflər digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparıblar.

# İranın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın Xarici İşlər nazirinə təqdim edib

Sentyabrın 7-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının ölkəmizə təyin edilmiş yeni səfiri Seyid Abbas Musəvi ilə görüşüb.



Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, İran səfiri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov Seyid Abbas Musəvini Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər ölkələrimiz arasında dərin tarixi köklərə əsaslanan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin qarşılıqlı hörmət və dəstək formasında inkişafından bəhs edib, əməkdaşlıq gündəliyində duran məsələlərin səmərəli şəkildə həyata keçirilməsi yolları üzrə fikir mübadiləsi aparıblar. Çoxtərəfli platformalarda əməkdaşlığın uğurla davam etdirilməsi məsələləri müzakirə olunub.

Səfir Seyid Abbas Musəvi Azərbaycanda diplomatik fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib. Səfir İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin ən səmimi arzularını və təbriklərini nazir Ceyhun Bayramova çatdırıb. İran səfiri ikitərəfli münasibətlərin dərinləşməsində böyük potensialın olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı təcavüzünü qeyd edərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı İranın hər zaman Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan ədalətli mövqeyini dəstəklədiyinə görə minnətdarlığını bildirib.

Öz növbəsində səfir Seyid Abbas Musəvi münaqişə məsələsində və Azərbaycanın işğal olunmuş ərazilərinə münasibətdə İranın Azərbaycanın mövqeyini dəstəklədiyini və ölkəsinin münaqişənin həlli üzrə kömək etməyə hər zaman hazır olduğunu vurğulayıb.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

# Avropa İttifaqı və ÜST koronaviruslu xəstələrin müalicəsində istifadə olunan avadanlıqları Səhiyyə Nazirliyinə təhvil verib

Sentyabrın 7-də Avropa İttifaqı (Aİ) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-lu ağır xəstələrin müalicəsinə kömək məqsədilə 129 oksigen konsentratoru və 60 pulsoksimetri Azərbaycanın Səhiyyə Nazirliyinə təhvil verib.

AZƏRTAC xəbər verir ki, bu tibbi ləvazimatlar Aİ-nin maliyyə dəstəyi ilə ÜST-ün Avropa Regional Ofisi tərəfindən "Sağlamlıq üçün həmrəylik təşəbbüsü" layihəsi çərçivəsində ölkəyə gətirilib.

Oksigen konsentratorları xəstəxanaya yerləşdirilmiş COVID-19-lu xəstələri oksigenlə təmin edən qeyri-invaziv bir vasitədir. Bu yolla təmin edilən oksigen qanda oksigenin səviyyəsi aşağı olan COVID-19-lu ağır xəstələrin müalicəsi üçün ilk önəmli addımdır və müalicə üçün əsas prioritet olmalıdır.

Ölkəyə gətirilmiş pulsoksimetrlər isə xəstələrdə qanda oksigenin səviyyəsini ölçməyə kömək edəcək.

"Team Europe"nin təşəbbüsü olan Aİ-nin "Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü" layihəsi tərəfdaşımız Azərbaycanda birinci mərhələdə fərdi qoruyucu vasitələrlə, indi isə həyatları xilas etməyə yardım edəcək zəruri tibbi avadanlıqlarla səhiyyə sistemini dəstəkləməyə davam edir", - deyə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib.

"Sağlamlıq üçün həmrəylik təşəbbüsü" ilə yerli səviyyədə aparılan mübarizə tədbirlərinə töhfə verdiyimiz üçün çox şadıq və ümid edirəm ki, bununla da Azərbaycanda fərq yarada biləcəyik", - deyə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib. "Bu cür ləvazimatlar oksigen müalicəsinə ehtiyacı olan insanlarda ciddi xəstəliklərin və ölüm hallarının qarşısını almaq üçün çox önəmlidir. Xəstəliyin insanlar arasında yayılmasının qarşısını almaq üçün əlimizdən gələni edərkən xəstəxanalara müvafiq qayğının göstərilməsi son dərəcə önəmlidir".

"Yüksək keyfiyyətli oksigen konsentratoru və pulsoksimetr tibbi ləvazimatlarının təchizatı üçün tərəfdaşlarımıza minnətdarıq. Aİ və ÜST-ün Azərbaycana verdiyi bu dəstək COVID-19-a yoluxmuş xəstələrin müalicəsi üçün istifadə ediləcək", - deyə Səhiyyə nazirinin müavini Rahim Əliyev qeyd edib.

Layihənin birinci mərhələsində Azərbaycanda tibb işçilərinin COVID-19 pandemiyasına effektiv və təhlükəsiz şəkildə cavab tədbirlərinə dəstək məqsədilə Bakı və regionlardakı 86 səhiyyə müəssisəsinə fərdi qoruyucu vasitələr paylanılıb. Aİ və ÜST həmçinin tibb işçiləri üçün 8 canlı və 7 onlayn "Təlimçilər üçün təlim" sessiyası təşkil edib. Bu da öz növbəsində gələcəkdə daha çox tibb işçisinə COVID-19-lu xəstələrin idarə edilməsində ən son metodlar haqqında təlim keçməyə kömək edəcək.

Bu böyük əhəmiyyət daşıyan ləvazimatların ianəsi hazırda 216-dan çox ölkəni və ərazini əhatə edən COVID-19 pandemiyasına qarşı Avropa İttifaqının mübarizə tədbirlərinin tərkib hissəsidir. Avropa İttifaqı 2020-ci il martın 27-də Şərqi Avropa və Qafqazın altı ölkəsində, o cümlədən Azərbaycanda COVID-19 pandemiyasının qarşısının alınması, virusun aşkarlanması və ona qarşı mübarizə tədbirlərinin görülməsi məqsədilə 30 milyon avroluq yardım paketi ayırdığını elan edib.

Bu vəsait ilkin olaraq zəruri ləvazimatların alınması və tibb işçiləri, virusa qarşı ön cəbhədə mübarizə aparan şəxslər üçün təlimlərin keçirilməsi kimi fövqəladə ehtiyacların ödənilməsi məqsədilə istifadə ediləcək. Uzunmüddətli perspektivdə bu yardım ölkənin ictimai səhiyyə sahəsində fövqəladə hallara qarşı mübarizə potensialının gücləndirilməsinə yönəldiləcək.

Layihə Avropa İttifaqının və ÜST-ün Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.

# Ermənistan ordusunun bölmələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 50 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 50 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan, Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# "Lenta.ru": Tam döyüş hazırlığında

## Ermənistan rəhbərliyi əhalini iqtisadi problemlərdən necə yayındırır

Sentyabrın 5-də Rusiyanın "Lenta.ru" portalı "Tam döyüş hazırlığında" adlı məqalə yayımlayıb. AZƏRTAC məqaləni təqdim edir.

* * *

Ermənistan-Azərbaycan sərhədində artıq bir aydan çoxdur ki, hərbi toqquşmalar və atışmalar davam edir. Bakı mütəmadi olaraq onun ərazisinə erməni silahlı qüvvələrinin təxribat-kəşfiyyat qruplarının atıldığını bildirir. Ermənistanın hərbi müdafiəsi altında olan qondarma Dağlıq Qarabağ respublikasında isə, ümumiyyətlə, bu günlərdə əsl müharibəyə hazırlaşmağa çağırıblar. "Lenta.ru" bu cür təcavüzkar bəyanatlara əsasın olub-olmadığını anlamağa çalışıb.

Ermənistan hökumətinin başçısı Nikol Paşinyan 2020-ci il avqustun 29-da qondarma Dağlıq Qarabağ respublikasının (DQR) paytaxtı Stepanakertə gələrək, yerli hərbi rəhbərliklə görüş keçirib. "Bu gün Qarabağ Müdafiə Ordusunun qərargahında keçirilən müşavirə zamanı biz hərbi əməkdaşlığın daha da dərinləşdirilməsi, həmçinin düşmənin qarşısını almaq mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etdik", - deyə Paşinyan "Facebook" səhifəsində bildirib.

Ermənistan hökumətinin başçısı DQR-in prezidenti Araik Arutyunyan ilə də görüşüb və regionda mövcud vəziyyəti, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və iqtisadiyyatın inkişafı üzrə birgə layihələri müzakirə edib.

Paşinyanın Qarabağa səfəri yayın son günündə qeyd olunan Azərbaycanın Qubadlı rayonunun ermənilər tərəfindən işğalının 27-ci ildönümü ərəfəsində baş tutub. Bakıdan verilən rəsmi məlumatlara görə, 1993-cü ilin avqustunda hərbi əməliyyatlar zamanı erməni qüvvələri tərəfindən 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə müəssisəsi, 86 - səhiyyə, 180 - mədəniyyət, 6 sənaye müəssisəsi dağıdılıb.

Bundan başqa, beş il ərzində Qubadlıda 238 nəfər həlak olub, 146 nəfər isə əlilə çevrilib. Bu gün baş verənlər demək olar ki, otuz il əvvəl baş vermiş hadisələri xatırladır. Xüsusilə Azərbaycanın Müdafiə Nazirliyi təkcə sentyabrın 1-də Ermənistan tərəfdən 32 dəfə atəş qeydə alıb. "Azərbaycan Ordusunun Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam və Koxanəbi kəndlərindəki mövqeləri atəşə tutulub", - deyə Azərbaycan Müdafiə Nazirliyinin saytında bildirilir.

Ermənistan-Azərbaycan hərbi qarşıdurmasının başlanğıcı 1992-ci ilə təsadüf edir. O zaman Dağlıq Qarabağ bölgəsinə görə münaqişə Ermənistanla Azərbaycan arasında tammiqyaslı müharibə xarakteri aldı. 1994-cü ilin may ayında Rusiyanın vasitəçiliyi ilə Yerevan və Bakı atəşkəs haqqında saziş imzaladılar. Sonrakı onilliklərdə vəziyyət vaxtaşırı müxtəlif insidentlərin baş verdiyi, 2016-cı ildə az qala tammiqyaslı qarşıdurmaya çevrilə bilən "dondurulmuş münaqişə" mərhələsinə keçdi.

Yenidən gərginləşmə 2020-ci il iyulun 12-də başladı. O vaxt Azərbaycan Ermənistanla sərhəddə hərbi əməliyyatların bərpa olunduğunu, ilk atəşin Ermənistan tərəfindən açıldığını bəyan etdi. Ermənistan silahlı qüvvələri tərəfinin təqdim etdiyi atəşə tutulma səbəbinin izahı kifayət qədər qəribə göründü. O, hətta Nikol Paşinyanın özündə də təəccüb doğurdu. O, hökumətin iyulun 14-də keçirilən iclasında, guya, Ermənistan ərazisinə keçərək və bununla da erməni hərbçilərini təhrik etmiş Azərbaycan Silahlı Qüvvələrinin UAZ markalı maşınını atəşə tutmalarının məqsədəuyğunluğunu şübhə altına aldı və müdafiə nazirini tənqid etdi.

Hər halda təkcə iyulun 12-dən 27-dək Ermənistan tərəfindən altı hərbçi həlak olub, 38 nəfər yaralanıb: 35 hərbçi, iki polis və bir dinc sakin. Azərbaycan hakimiyyəti 13 nəfərin öldürüldüyünü (onlardan 12-si hərbçi və biri dinc sakin) və dörd nəfərin yaralandığını bəyan edib.

Qeyd olunan dövrdə davam edən şiddətli döyüşlər başa çatdıqdan sonra da iki respublika arasındakı sərhəddə vəziyyət gərgin olaraq qalır. Məsələn, Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatına görə, avqustun 23-də Ermənistan silahlı qüvvələrinin təxribat-kəşfiyyat qrupu Goranboy rayonu istiqamətində təxribata cəhd göstərib.

Azərbaycan Ordusu ilə döyüş qarşıdurması nəticəsində erməni hərbçiləri geri çəkilməyə məcbur olub, qrupun komandiri, baş leytenant Qurgen Alaverdyan isə əsir götürülüb. "Biz bir daha bəyan edirik ki, cəbhədə vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyəti Ermənistan hərbi-siyasi rəhbərliyi daşıyır", - deyə bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi qeyd edib.

Diqqətəlayiq haldır ki, iyul ayında qarşıdurma tərəflər arasında "çəkişmə nöqtəsi" olan və dəfələrlə döyüş əməliyyatları yerinə çevrilən Dağlıq Qarabağda deyil, birbaşa Ermənistan və Azərbaycan sərhədində, dinc kənd sakinlərinin yaşadığı ərazidə baş verib. Bu, bəzi ekspertlərin fikrincə, Ermənistanın münaqişəni KTMT-nin səlahiyyətinə vermək və Rusiyanı bu əraziyə cəlb etmək niyyətini göstərə bilər.

Hələ 2015-ci ildə hərbi müşahidəçi Pavel Felgenhauer deyirdi: "Hər dəfə sərhəddə atəş səsləri eşidiləndə və son vaxtlar həmçinin raket hücumları edildiyi zaman, əsgərlər və mülki vətəndaşlar öldürüldükdə, Yerevan susaraq hərbi müttəfiqi - Ermənistanın təhlükəsizlik zəmanətini öz üzərinə götürən Moskvanın reaksiyasını gözləyir. Adətən - ən azı son illərdə - bu reaksiya olmur".

Ekspertin fikrincə, bu dəfə Ermənistan Rusiyanı Azərbaycana qarşı hər hansı hərbi əməliyyatlara təhrik edə bilməyəcək. "Əlbəttə ki, Ermənistan Rusiya da daxil olmaqla KTMT-dəki müttəfiqlərdən kömək istəyəcək, çünki onun ərazisində - Gümrüdə Rusiyanın hərbi bazası var. Amma Rusiya müharibə etmək istəmirsə, Ermənistan Rusiyanı müharibə etməyə məcbur edə bilməz", - deyə Pavel Felgenhauer vurğulayıb.

Əslində, "Lenta.ru"nun yazdığı kimi, Ermənistan özü dərhal göstərilən ssenarinin yolu ilə getdi, bu da Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyanın 14 iyul tarixli bəyanatı ilə təsdiqlənir. Diplomatın sözlərinə görə, Rusiyanın Ermənistan-Azərbaycan sərhədində baş verənləri dayandırmaq üçün vasitəçilik səylərini göstərə biləcəyinə Yerevanda çox ümid bəslədilər. "KTMT-dən olan həmkarlarımızın reaksiyasına da ümid bəsləyirik, çünki söhbət Ermənistanın KTMT iştirakçıları da daxil olmaqla tanınmış sərhədinin sahəsindən gedir", - deyə Toqanyan o vaxt bildirib.

Lakin Rusiya Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsindən təkcə "ciddi narahatlığını" dilə gətirdi. "Regionun təhlükəsizliyinə təhdid edən gələcək eskalasiyanın qəbuledilməz olduğunu hesab edirik. Qarşı tərəfləri təmkinli olmağa və atəşkəs rejiminə ciddi şəkildə riayət etməyə çağırırıq", - deyə qurumun rəsmi bəyanatında bildirilib.

Nazir Sergey Lavrov faktiki olaraq vəziyyətin gərginləşməsinə görə məsuliyyəti Ermənistan tərəfinin üzərinə qoyub. "Coğrafi amil də bir növ təkan rolunu oynayıb: Ermənistan tərəfinin Azərbaycanın ixrac boru kəmərlərindən 15 kilometr məsafədə yerləşən köhnə sərhəd-keçid məntəqəsini bərpa etmək qərarı birilərində yüksək narahatlıq doğurdu, digərlərində isə əsassız əks reaksiyaya səbəb oldu və yekunda ən gözlənilməz nəticələrlə qarşıdurma çarxını işə saldı", - deyə nazir "Trud" qəzetinə müsahibəsində vurğulayıb.

Sonradan, sentyabrın 1-də Sergey Lavrov bəyan edib ki, Ermənistan və Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətin normallaşmasında maraqlıdırlar. O, həmçinin bu ərəfədə Ermənistanın və Azərbaycanın Xarici İşlər nazirləri Zöhrab Mnatsakanyan və Ceyhun Bayramov ilə ünsiyyət qurduğunu xəbər verib. "Biz də elə hiss edirik ki, hər iki tərəf vəziyyətin sakitləşməsində, həmsədrlərin (ATƏT-in Minsk qrupunun - "Lenta.ru") təmsilçilərinin regionda təşkil etdikləri görüşlərin bərpa olunmasında maraqlıdırlar", - deyə nazir bildirib.

Lakin Rusiyanın mövqeyi münaqişənin əvvəlindən danışıqlar prosesinin formatını dəyişməyə can atan Ermənistanın yəqin ki xoşuna gəlmir. Xüsusilə Nikol Paşinyan "ərazilərin sülhə dəyişdirilməsi" formulunun müzakirəsindən paralel olaraq imtina edərək, danışıqlara qondarma Dağlıq Qarabağ respublikasının daxil edilməsində israrlıdır. Öz növbəsində, qondarma Dağlıq Qarabağ respublikasının prezidenti Araik Arutyunyan sentyabrın 2-də mətbuat konfransında bəyan edib ki, danışıqların müzakirəsi əvəzinə müharibəyə hazırlaşmaq lazımdır.

"Gəlin, realist olaq və müharibəyə hazırlaşaq, danışıqlar mövzusunu müzakirə etməyək. Danışıqlar olmayacaq, mən bunu görmürəm. Azərbaycan danışıqlara köklənməyib. (...) Burada nə barədə danışmaq olar?", - deyə Arutyunyan hesab edir. Onun sözlərinə görə, qondarma respublika üçün Ermənistan və Azərbaycan arasında olan məlum paket və müqavilələrdən heç biri belə qəbuledilməzdir. Belə olan halda Bakının Yerevanla nə barədə razılığa gəlməsi tamamilə anlaşılmazdır.

Ermənistan bir tərəfdən, öz ordusunun döyüş gücünün artmasını, həmçinin silahlanmaya büdcə xərclərinin 2010-cu ildə 395 milyon dollardan 2020-ci ildə 625 milyon dollaradək artmasını bəyan edir. Digər tərəfdən isə, erməni hərbi qulluqçularının hazırlıq keyfiyyəti xeyli sual ortaya çıxarır. Ən azından götürək elə sonuncu hadisəni - kəşfiyyat-təxribat qrupu komandirinin əsir götürülməsini: qrup rəhbəri yerin təyin edilməsinin öhdəsindən gəlməyərək yolu azıb və əsir düşüb.

Hətta Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan da erməni kəşfiyyatının zəif olmasını etiraf edir. Belə ki, müharibənin başlanmasına həsr edilmiş mətbuat konfransında o, bəyan etmişdi ki, Yerevan Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprelində hücuma hazırlaşması barədə bilmirdi. "Bəli, bu, bizim kəşfiyyatımızın qüsurudur", - deyə Sarkisyan bəyan etmişdi.

"Əminəm ki, guya, bizim hücum barədə dəqiq məlumata sahib olmağımız haqqında bütün bəyanatlar sadəcə olaraq o insanlar tərəfindən edilib ki, onlar bu dövrdə və bundan əvvəl, həmçinin kəşfiyyat tərəfindən təqdim olunan məlumatlarla tam tanış olmaq imkanı əldə etməyiblər", - deyə Sarkisyan əlavə edib.

Öz növbəsində, ekspertlər Ermənistan rəhbərliyinin aqressiv davranışını ölkənin daxili problemləri ilə əlaqələndirirlər. Xüsusilə də bunu koronavirus pandemiyasının fəsadları və baş nazirin reytinqinin aşağı düşməsi ilə bağlayırlar. Döyüşkən ritorikanın əsas məqsədini isə respublika sakinlərini daxili siyasi və iqtisadi vəziyyətdən yayındırmaq niyyəti adlandırırlar.

Vəziyyət isə çox acınacaqlıdır. Məsələn, bu günlərdə Ermənistanın ikinci prezidenti Robert Koçaryan Ermənistanın hakimiyyət orqanlarını koronavirusun fəsadlarının aradan qaldırılması üzrə planın olmamasında günahlandırıb. "Artıq bu gün iqtisadiyyatın bərpası üçün hansı addımları atacağımız haqqında proqram olmalıdır. İlk növbədə, söhbət mövcud olanların xilasından getməlidir", - deyə siyasətçi bildirib.

Burada qeyd etmək lazımdır ki, 2020-ci il martın 16-da koronavirusun yayılmasının qarşısını almaq məqsədilə Ermənistanda fövqəladə vəziyyət rejimi elan edilib. Müddəti beş dəfə uzadılan rejim hələ də qüvvədədir və sentyabrın 11-də başa çatmalıdır. Sözsüz ki, bu, ölkə iqtisadiyyatına öz təsirini göstərməyə bilməz. Məsələn, Ermənistanın 2020-ci il üçün büdcəsi iqtisadiyyatın illik 5,3 faiz artımını nəzərdə tutur. Mart ayında birinci rüb üçün hesabatda Mərkəzi Bank bu göstəriciyə yenidən baxaraq onu 0,7 faiz aşağı salıb. İkinci rübün yekunlarına görə, Mərkəzi Bank ehtimal edilən iqtisadi artım əvəzinə ÜDM-in 4 faiz azalmasını proqnozlaşdırıb.

Bununla yanaşı, respublikanın özündə heç də hamı, o cümlədən parlamentarilər rəsmi məlumatlara inanmır, onları saxtalaşdırılmış hesab edirlər. "Ermənistan Statistika Komitəsinin dərc etdiyi 2020-ci ilin birinci yarımilliyinin sosial-iqtisadi vəziyyəti barədə ümumi məlumata əsasən, iqtisadi azalma 4,7 faiz təşkil edib, sənaye istehsalının həcmi 1,5 faiz artıb, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1,7 faiz artıb, tikinti sahəsində azalma 23,4 faiz təşkil edib, əmtəə dövriyyəsi 11,1 faiz azalıb, xidmət həcmi (ticarət istisna olmaqla) 6,4 faiz aşağı düşüb, ixracat 6,5 faiz azalıb, idxal isə 12,9 faiz aşağı düşüb. Bu, dərc edilmiş rəsmi göstəricilərdir. Əgər qısa izah etsək, mən bu rəqəmlərə inanmıram. Çünki ölkə dərin iqtisadi böhran vəziyyətindədir və biz görürük ki, böhranın fəsadları bu rəqəmlərdə öz əksini tapmayıb", - deyə parlamentin "Maarifləndirilən Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan özünün "Facebook" səhifəsində yazıb.

Münaqişəyə şərait yaradan ikinci səbəb Nikol Paşinyanın siyasi problemləridir. Məsələn, ölkənin Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı Artur Vanetsyan kimi onun güclü siyasi rəqibləri əmələ gəlməyə başlayıb. "Vətən" partiyasının rəhbəri hələ bu ilin yanvarında öz sıralarından yeni baş nazirin seçilməsi təklifi ilə çıxış edib. Artıq sentyabrda isə bəyan edib ki, Ermənistanı "siyasi mənada isti payız gözləyir" və "Nikol Paşinyanın hakimiyyətdə olduğu və hökumətə rəhbərlik etdiyi hər yeni gün Ermənistan Respublikası üçün öldürücüdür".

Paşinyan Rusiyanın da dəstəyinə ümid edə bilməz. Bu ifadəni təsdiqləmək üçün kiçik bir illüstrasiya kifayətdir - Rusiya Prezidenti Vladimir Putin telefonla Paşinyanın avqustun 31-də 66 yaşı tamam olan qatı siyasi rəqibi, keçmiş Ermənistan prezidenti Robert Koçaryanı ad günü münasibətilə təbrik edib. Kremlin saytında Putinin Koçaryanı müasir Ermənistanın inkişafı üçün çox işlər görmüş görkəmli dövlət xadimi adlandırdığı təbrik teleqramı dərc edilib. Rusiya lideri tərəfindən heç vaxt Paşinyan haqqında bu qədər xoş sözlər səsləndirilməyib və Putinin Paşinyana təbrik teleqramı heç, ümumiyyətlə, Kremlin saytında dərc olunmayıb.

Təəccüblü deyil ki, indiki erməni administrasiyasına Rusiyanın münasibətini Azərbaycanda da görürlər. Məsələn, Azərbaycanın keçmiş Xarici İşlər naziri Tofiq Zülfüqarov hələ iyul ayında belə bir açıqlama vermişdi: "Rusiyadan Paşinyan administrasiyasının ünvanına səsləndirilən tənqidlər, eləcə də Ermənistan müxalifətinin dəstəklənməsi ölkələr arasındakı münasibətlərin artıq əvvəlki səviyyədə olmadığını göstərir. Rusiya faktiki olaraq Ermənistanı tərəfdaş kimi artıq qəbul etmir. Ermənistan rəhbərliyi Rusiyadan uzaqlaşaraq Qərbə yaxınlaşır. Fikrimcə, bunun siyasi, iqtisadi və daxili səbəbləri mövcuddur".

Paşinyan özü də bunu dolayı yolla BBC-nin "HARDtalk" verilişində ritorikası ilə təsdiqləyir. Jurnalist Stiven Sakurun Ermənistanın Qərblə, yoxsa Rusiya ilə bir olması barədə sualını cavablandıran Ermənistanın baş naziri dərhal Yerevanın Qərbə sadiqliyini nümayiş etdirərək, Rusiyanın Ermənistan üçün "təhlükəsizlik sahəsində strateji tərəfdaş olduğunu" qeyd edib. "Yeri gəlmişkən, Avropa Birliyi indi islahat proqramının həyata keçirilməsində əsas tərəfdaşımızdır. NATO ilə səmərəli əməkdaşlığımız var və bu arada Əfqanıstan, Kosovo, Livan, Malidəki missiyalarda [NATO] iştirak edirik. ABŞ ilə kifayət qədər səmərəli hərbi əməkdaşlığımız var", - deyə Paşinyan BBC jurnalistini inandırmağa tələsib.

Erməni siyasəti indiki kimi davam edərsə, iki ölkə arasındakı məsafə yalnız genişlənəcək, bu isə o deməkdir ki, Ermənistan xarici problemlərini təkbaşına həll etməli olacaq.



# Biz birlikdə güclüyük!



## Azərbaycan COVID-19-la mübarizədə qalib çıxacaq ilk ölkələrdən olacaq

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı açılışda onu da diqqətə çatdırdı ki, tikintisi nəzərdə tutulan modul tipli 7 xəstəxanaya hazırda ehtiyac yoxdur. Zərurət yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa etmək mümkündür. Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir ki, onların da 41-i son 17 il ərzində inşa edilmişdir. Əgər pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idisə, bu gün onların sayı 45-ə çatdırılıb. 900 mindən çox adam testdən keçirilmiş, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 dəfə artırılmışdır. Eyni zamanda Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmiş, Azərbaycan isə 30-dan çox ölkəyə humanitar yardım göstərmişdir.

Prezident çıxışında Azərbaycan iqtisadiyyatındakı mövcud durumu başqa ölkələrlə müqayisə edərək bizdə vəziyyətin daha yaxşı olduğunu qeyd etmişdir: “Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq, bu, yaxşı göstəricidir”.

Ölkə iqtisadiyyatının inkişafını bərpa etmək üçün postpandemiya dövrünə hazırlıqlar xüsusi əhəmiyyət kəsb edir. Lakin bu mərhələnin nə vaxt başlayacağı və nə vaxt bitəcəyi heç kimə məlum deyil. Dünya miqyasında aparılan araşdırmalar, peyvəndlərin üzərində davam edən tədqiqatlar ümidvericidir.

Dövlət başçısı hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə bağlı fəal iş aparıldığını bildirmişdir: “Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb”.

Yeri gəlmişkən, qeyd edək ki, hazırda hər gün 100-dən 200-ə qədər insan koronavirusa yoluxur və bu göstərici əvvəlki aylardan bir neçə dəfə aşağıdır. Lakin bizdən fərqli olaraq daha fəal yumşalmalara gedən ölkələrdə xəstələrin sayının kəskin artması müşahidə olunur. İnkişaf etmiş Avropa ölkələrində avqust ayında xəstələrin sayı pik həddə çatmış, əvvəlki aylardan daha yüksək yoluxmalar baş vermişdir. Azərbaycan Prezidenti bu məsələyə öz münasibətini belə bildirmişdir: “Əlbəttə ki, bəzi Avropa ölkələrində xəstələrin sayında kəskin artım bizi düşündürür və daha ehtiyatlı addımların atılmasına sövq edir. Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti doğrudan da görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik”.

Buna baxmayaraq, dövlət başçısı birmənalı şəkildə vəziyyəti dərk etməyənlərə, vəzifəsindən asılı olmayaraq qaydaları kobudcasına pozanlara qarşı cəza tədbirlərinin tətbiq ediləcəyini bildirmişdir: “Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Dövlətin qayğısı məni koronavirusdan xilas etdi

XXI əsrin 20-ci ili yaddaşlara koronavirus pandemiyası ilə həkk olundu. İlin ilk aylarından bütün dünyada sürətlə yayılmağa başlayan bu bəla, COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Koronavirus pandemiyasının yayılmağa başladığı ilk gündən dövlət başçısı İlham Əliyev bu xəstəliklə mübarizə üçün təcili məqsədyönlü tədbirlərin həyata keçirilməsinə göstərişlər verdi. Dəfələrlə xalqa müraciətində Prezident vətəndaşların sağlamlığının hər şeydən üstün olduğunu və birlikdə xalqımızın bu xəstəliyə qalib gələcəyini, birlikdə güclü olduğumuzu söylədi.

Pandemiya bütün informasiya vasitələrinin əsas mövzusu oldu. Mərkəzi mətbuatda olduğu kimi, rayon qəzetlərinin səhifələrində də pandemiya ilə əlaqədar müxtəlif yazılar dərc edilir. Mən də əməkdaşı olduğum “Şəlalə” qəzeti üçün bu mövzuda materiallar hazırlamışam. Mərkəzi mətbuatda çalışan həmkarlarımın xəstələndiyini, hətta bir neçəsinin vəfat etdiyini eşidəndə çox kədərlənmişdim. İş yerimdə, küçədə maskadan, sosial məsafədən, digər qoruyucu vasitələrdən həmişə istifadə edirdim. Lakin iyul ayının ortalarında, milli mətbuatımızın 145, əmək fəaliyyətimin 45 illiyini qeyd etməyə hazırlaşdığım bir vaxtda özümü narahat hiss etdim. Rayon mərkəzi xəstəxanasının həkimləri ilkin yardımları ilə vəziyyətimi nisbətən yüngülləşdirsələr də, məndə koronavirus xəstəliyinin simptomları olduğunu bildirdilər. Müalicə üçün Balakən rayonundakı regional xəstəxanaya göndərildim. Bir həftəlik müalicədən sonra həkimlər mənim sağaldığımı söylədilər. 14 günlük karantin üçün evə buraxıldım.

Xəstəxanada xəstələrə yaradılan şəraiti, həkimlərin, tibb bacılarının hər bir xəstəyə münasibətlərini yalnız bir vətəndaş kimi deyil, mətbuat işçisi kimi də seyr etdim. Burada vətəndaşların sağlamlığı üçün dövlət hər cür şərait yaratmışdır. Müalicə üçün hər cür dərman preparatlarından tutmuş isti yeməyə qədər hər şey dövlət hesabına idi. Xəstəxanada ağxalatlılarımızın gərgin əməyinin yaxından şahidi oldum. Gözlük arxasında yalnız gözləri görünən həkimlərin, tibb bacılarının fədakarlığına heyran oldum. Xəstəxananın baş həkimi Dilbər Quliyeva tez-tez palataları gəzir, xəstələrin vəziyyəti ilə maraqlanırdı. Həkimlərdən Günel Xəlilova, Albina Xəlilova, Laləzər Kazımova, Əfsələddin Buqayev, Şirin Abbasov, Əsgər Axundov, tibb bacılarından Havva Algayeva, Asiyət Novruzova, Gülnaz Hüseynova və başqaları daim xəstələri nəzarətdə saxlayırdılar. Mənim də tez sağalmağımda onların əməyi çox olub. Artıq karantindən çıxmışam. Evimdə, məni xəstəxanaya gözüyaşlı yola salan nəvələrimin yanındayam.

Son günlər ölkəmizdə bu xəstəliyə tutulanların sayının azalması, sağalanların çoxalması hamımızı sevindirir. Bütün bunlar dövlətimizin bu sahədə apardığı düzgün siyasətin nəticəsində əldə olunur. Ona görə, ilk növbədə, dövlətimizə, Prezidentimizə və həkimlərimizə minnətdaram.

Çox təəssüf edirəm ki, dövlətimizin öz vətəndaşına göstərdiyi bu böyük diqqətə, qayğıya qara yaxanlar da tapılır. Sosial şəbəkələrdə düşmənin quyusuna su tökən bələlərinə üz tutub deyirəm: “Ölkəmizdə vətəndaşın sağlamlığı, sosial vəziyyətinin yaxşılaşdırılması üçün verilən qərar və sərəncamları, yaradılan şəraiti görməmək üçün kor və nadan olmaq gərəkdir”.

Qoy Ulu Tanrı xalqımızı bu bəladan qorusun, dövlətimizin, Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın hər an yardımçısı olsun!

***Kifayət CABBARLI,***
***Qax rayonunda çıxan “Şəlalə” qəzetinin əməkdaşı***

## Azərbaycanda koronavirus infeksiyasından daha 132 nəfər sağalıb, 89 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 132 nəfər müalicə olunaraq sağalıb, 89 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 37 min 418 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 34 min 837 nəfər müalicə olunaraq sağalıb, 551 nəfər vəfat edib. Aktiv xəstə sayı 2030 nəfərdir.

Ötən müddət ərzində 967 min 40 test aparılıb. Dünənki test sayı isə 3936-dır.




*Əvvəli 1-ci səh.*

## Azərbaycan pandemiya dövründə ortaya yaxşı nümunələr qoyur

### Yumşalmalara sürətli keçid zamanında görülən məqsədyönlü tədbirlərin nəticəsidir

Ölkəmizdə yeni tip koronavirusla mübarizə davam etdirilərək, epidemioloji vəziyyətin nəzarətdə saxlanılması, infeksiyanın yayılmasının lokallaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Mütəmadi olaraq ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil olunaraq ona uyğun qərarlar verilir.

Respublikamızda COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində yoluxma sayında müsbət dinamika əldə edilib.

Məhz effektiv tədbirlərin nəticəsidir ki, avqustun 5-dən vətənimizdə mərhələli şəkildə sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılmasına, bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına start verilib. SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Avqustun 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib. Bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və “Mall”lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb.

Nazirlər Kabinetinin qərarına əsasən, ölkə üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb.

#### Təhsil müəssisələri də mərhələli şəkildə açılır

Eyni zamanda xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 10 nəfərədək qruplarda fərdi tədris və repetitor xidmətlərinə icazə verilib.







Növbəti yumşalma qərarı ölkə ərazisində təhsil müəssisələrinin sentyabrın 15-dən mərhələli şəkildə açılması ilə bağlı olub. Bu tarixdən ilk olaraq ibtidai siniflərdə dərslər keçiriləcək. Yuxarı sinif şagirdləri isə sentyabrın 15-də onlayn tədrisə başlayacaqlar. Zamanla bu siniflərdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa ediləcək. Oktyabrın 1-dən etibarən 5-9-cu siniflərin, oktyabrın 15-dən etibarən isə 10-11-ci sinif şagirdlərinin ənənəvi təhsilinin bərpası nəzərdə tutulur.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, sentyabrın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının da açılmasına icazə verilib. Müvafiq hazırlıq və tibbi-profilaktik tədbirlərdən sonra epidemioloji vəziyyətə uyğun olaraq 1 oktyabr tarixədək bağçaların tam açılması nəzərdə tutulur.

#### Bu gündən əlavə yumşalma tədbirlərinə start verilir

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, bu gündən etibarən əlavə yumşalma tədbirlərinə start verilib.

Belə ki, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 8 sentyabrdan Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Eyni zamanda sözügedən tarixdən müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə” 6 iyul tarixli qərarına uyğun olaraq ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilir. İctimai iaşə obyektlərinin daxilində xidmət göstərilən zaman isə aşağıdakı hallara nəzər yetiriləcək:

Koronavirus (COVID-19) pandemiyası dövründə insanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq, ictimai iaşə müəssisələrinə müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq hər adambaşına müəyyən edilən sahə ikiqat artırılmalı, bu müəssisələrin qida qəbulu zallarında, otaqlarında, habelə onların açıq hava sahələrində oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafələr isə 2 metrdən az olmamalıdır.

#### Bu müəssisələrdə adambaşına müəyyən edilən sıxlıq normaları göstərilməlidir

Hər bir ictimai iaşə müəssisəsinin qarşısındakı lövhədə həmin müəssisənin qida qəbulu yerlərinin (zallar, otaqlar və s.) ümumi sahəsi, oturacaq yerlərinin sayı, masalararası məsafə, adambaşına müəyyən edilən sıxlıq normaları göstərilməlidir. İctimai iaşə obyekti dedikdə yeyinti məhsullarının istehsalı, emalı, satışı və istehlakının təşkili ilə əlaqədar xidmət fəaliyyətini həyata keçirmək məqsədilə istifadə edilən əmlak kompleksi (restoran, kafe, yeməkxana, qəlyanaltı, bufet, köşk tipli məkanlar, çay evləri və bu kimi digər obyektlər) nəzərdə tutulur.

Qaydalara əsasən, ictimai iaşə obyektinin açıq hava sahəsi dedikdə ən azı üç tərəfdən bütövlükdə hava axınına tam açıq (bir metrdən hündür hər hansı tikili və digər konstruktiv maneəsiz) sahə və ya üzəri tam açıq (açıq səma altında) sahə nəzərdə tutulur. İctimai iaşə obyektlərinin giriş-çıxışlarında, kassalarda dezinfeksiya məhlulundan istifadə imkanı, o cümlədən dezinfeksiya məhlulundan istifadə üçün müvafiq qurğuların (dispenserlərin) yerləşdirilməsi və həmin qurğuların işlək vəziyyətdə olması təmin edilməlidir.

#### Vətəndaş məsuliyyəti məhdudiyyətləri aradan qaldırır

Lakin ardıcıl şəkildə həyata keçirilən yumşalmalar vətənimizdə virusun tamamilə yox olması anlamına gəlməməlidir. Arxayınlaşmaq hələ tezdir və məhdudiyyətlərin aradan qalxdığı bu dövrdə qoyulan qaydalara daha məsuliyyətlə əməl edərək COVID-in yayılmasına mane olmalıyıq.

Reallıqdır ki, yumşalma tədbirlərinin davamlı olması birbaşa vətəndaş məsuliyyətindən asılıdır. Kiçik bir diqqətsizlik koronavirusa yoluxma hallarının artmasına, bu isə yenidən məhdudiyyətlərin tətbiqinə rəvac verə bilər.

Operativ Qərargah da mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırır.

Əgər gigiyenik tələblərə riayət edilməzsə, yumşalma tədbirləri yenidən məhdudiyyətlərlə əvəzlənə bilər.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Levan Davitaşvili: "Azərbaycan, Gürcüstan və Türkiyə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq edirlər"



"Azərbaycan, Gürcüstan və Türkiyə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq edirlər. Bu əməkdaşlıq strateji məhsul olan fındıq istehsalı sahəsində də genişlənir və inkişaf edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Gürcüstanın Zuqduqi bölgəsində keçirilən "Fındıq Festivalı"nda (Txiloba 2020) səsləndirilib.

Festivalın açılışında Azərbaycanın Gürcüstandakı səfirliyinin müvəqqəti işlər vəkili Sərxan İsmayılov, Türkiyənin bu ölkədəki səfiri Fatma Ceren Yazgan və digər şəxslər iştirak ediblər. Gürcüstanda kənd təsərrüfatı sahəsində çalışan şirkətlər festival çərçivəsində öz məhsullarını nümayiş etdiriblər. Sərgidə Azərbaycan şirkəti də təmsil olunub.

Gürcüstanın Baş naziri Giorgi Qaxariya festivalın açılış mərasimində çıxış edərək ölkəsinin iqtisadi inkişafı, bu sahədə regional və qlobal əməkdaşlıq imkanları barədə məlumat verib. O, hökumətin kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirdiyini, fermerlərə hər cür şərait yaradıldığını, onlara güzəştli şərtlərlə dizel yanacağının verildiyini xüsusi qeyd edib.

Gürcüstanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi naziri Levan Davitaşvili isə dünya bazarında fındıq məhsuluna olan tələbatdan danışıb, ölkəsinin fındıq istehsalı sahəsində Azərbaycan və Türkiyə ilə fəal əməkdaşlıq etdiyini vurğulayıb.

Bildirib ki, keçən il Türkiyənin Ordu şəhərində üç ölkənin kənd təsərrüfatı nazirlikləri arasında strateji əməkdaşlıq haqqında bəyannamə imzalanıb. Sənədə əsasən, Türkiyə, Azərbaycan və Gürcüstan fındıq istehsalı sahəsində daha fəal əməkdaşlıq edirlər. Hazırda bu əməkdaşlıq daha da genişlənib, hər üç ölkə fındıq emalı və ixracında fəal işbirliyi qurublar.

Nazir Azərbaycan və Türkiyə ilə iqtisadiyyatın, xüsusən kənd təsərrüfatının digər sahələrində sıx əməkdaşlıq edildiyini və bunun da tərəflərə çox böyük səmərə verdiyini vurğulayıb.

Sərxan İsmayılov deyib ki, Azərbaycan bu gün regional əməkdaşlıq sahəsində çox fəal iştirak edir. Ölkəmiz təkcə neft-qaz sahəsində deyil, digər sahələrdə də regional layihələr həyata keçirir və böyük uğurlar qazanır. Bu layihələrdə qonşu dövlətlərin iştirakı region xalqlarının rifah halının yaxşılaşmasına xidmət edir. "Zuqduqidə keçirilən festivalda Azərbaycanın adının xüsusi qeyd olunması bunu bir daha sübut edir", - deyə o bildirib.

## DSMF-də növbəti struktur dəyişikliyi edilib

Pensiya təminatı üzrə xidmətlərin keyfiyyətinin artırılması və bu sahədə idarəçiliyin optimal əsaslarla təkmilləşdirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) strukturunda növbəti dəyişiklik edilib.



Qaradağ, Xətai, Binəqədi, Nərimanov, Saatlı, Sabirabad, Şuşa və Zəngilan rayonları üzrə əmək şəraitinə görə güzəştli qaydada pensiya təyin edilmiş və əmək pensiyasına qulluq stajına görə əlavələr müəyyən olunmaqla pensiya təyin olunmuş şəxslərin (dövlət qulluqçuları, xüsusi rütbəli şəxslər və b.) pensiya işləri DSMF-nin həmin rayonlar üzrə şöbələrindən fondun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına verilib.

Bununla əlaqədar həmin şəxslərə pensiyalar da bu aydan etibarən hər ayın 14-16-sı aralığında ödəniləcək ki, bu da onların pensiyalarının hər ay daha tez ödənilməsi istiqamətində bir addımdır.

Eyni zamanda adları çəkilən rayonlar üzrə güzəştli və xüsusi şərtlərlə pensiya təyin edilmiş və təyin olunacaq şəxslər hər hansı suallar yarandıqda DSMF-nin Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına müraciət edəcəklər.



## Dünya sularında Azərbaycanın yeni gəmiləri üzəcək

Əvvəli 1-ci səh.

Dəniz yollarında çətin və məsuliyyətli vəzifə yerinə yetirdikləri üçün gəmilərin həmişə saz vəziyyətdə olması çox vacibdir. Bunu təmin etmək isə gəmi tikintisi və təmiri ilə məşğul olan müəssisələrin üzərinə düşür. Ölkəmizdə bu sahədə son illər infrastruktur daha da müasirləşdirilmiş və təkmilləşdirilmişdir. Ehtiyac yarananda gəmilərimiz öz təyinatına uyğun müəssisədə təmirə dayanır və saz vəziyyətə salınır.

Bir qədər əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) məxsus "Naxçıvan" gəmi-bərəsi "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmir edilib. Təmir işləri planlaşdırılmış şəkildə və yüksək keyfiyyətlə həyata keçirilib.

Gəmi-bərənin baş və köməkçi mühərrikləri, nasos və separatorları əsaslı təmir olunub, boruları quraşdırılıb. Gəmidə gövdə qaynaq, avtomatika işləri görülüb, elektrik avadanlıqları təmir olunub, yeni kompressorlar yerləşdirilib. Eləcə də gəminin yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsinə çatdırılıb, orada yeni mebellər quraşdırılıb. Sualtı və suüstü hissələr, vaqon və üst göyərtələri təmizlənərək rənglənib.

Dəniz-sınaq yoxlamasından uğurla çıxan "Naxçıvan" gəmi-bərəsi yenidən istismara qaytarılıb. Bu gəminin uzunluğu 154 metr, eni 18 metrdən çoxdur.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda eləcə də ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus "Hüseyn Cavid" universal quru yük gəmisi təmir olunub. Bu, Xəzərdənkənar sularda istismar olunan gəmidir.

"Hüseyn Cavid" 2016-cı ildən Azərbaycan bayrağı altında xarici sularda üzür. Gəminin uzunluğu 108 metrdən çox, eni 17 metrə yaxın, yükgötürmə qabiliyyəti 5200 tondur.

Zavodda gəminin baş və köməkçi mühərrikləri, anbar qapaqları yüksək keyfiyyətlə təmir olunub. Gəmidə boru və elektrik quraşdırma, avtomatika və gövdə qaynaq işləri görülüb. Eləcə də heyətin yaşayış şəraitini yaxşılaşdırmaq üçün yeməkxana və kayutlarda lazımi təmir işləri aparılıb.

Bir sıra digər hissələr də təmir olunub. İşlər tamamlandıqdan sonra gəmi yoxlanışdan keçirilib və dənizçilərin ixtiyarına verilib.

ASCO-nun Xəzər Dəniz Neft Donanmasına məxsus "Şirvan" 100 tonluq kran gəmisinin də əsaslı təmiri yekunlaşıb. Bu iş "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib. Təmirin gedişində gəminin mexanizmləri, baş mühərrikləri, nasosları, boru sistemləri, sanitar qovşaqları, bir sıra digər qurğuları sazlanıb.

"Şirvan" tərsanəyə qaldırılaraq gövdəsinin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib.

İşlər başa çatdıqdan sonra gəminin yükqaldırma qabiliyyətinə malik kran qurğusunun sınaq işləri aparılıb. Mexanizm və elektrik avadanlıqlarının hərəkətdə yoxlanılması məqsədilə gəmi dəniz sınaqlarına çıxarılıb və onlar müvəffəqiyyətlə başa çatıb.

"Bakı Gəmiqayırma Zavodu" MMC-də isə ASCO-nun sifarişi ilə inşa edilən "Kəlbəcər" neftdaşıyan tankeri tikintisinin növbəti mərhələsinin aparılması üçün suya salınıb. Gəminin gövdə hissəsinin inşası tam başa çatıb. Qalan işlər zavodun yanalma körpüsündə davam etdiriləcək. "Kəlbəcər" tankeri müəssisənin tikinti-quraşdırma sahəsindən üzən dok vasitəsilə bu məqsədlə suya salınıb.

Yeni gəminin konsepsiyasını Odessa Dəniz Mühəndisliyi Bürosunun və ASCO-nun təcrübəli mütəxəssisləri birgə hazırlayıblar. "Volqa-Don MAX" layihəsi olan gəmi maksimum yükgötürmə qabiliyyəti ilə Volqa-Don çayından keçmək imkanına malikdir.

Yeni nəsil "Kəlbəcər" tankerinin uzunluğu 141, eni 16,9, bortunun hündürlüyü 6 metrdir. 15 nəfərlik heyətlə idarə edilən gəmi saatda 10 knot sürətlə hərəkət edə biləcək. Tanker xam neft və neft məhsullarının daşınması üçün nəzərdə tutulmuş, ümumi tutumu 9212 kubmetr olan 6 yük çəninə malikdir.

Zavodun yanalma körpüsündə istismar sınaqları başa çatdıqdan sonra "Kəlbəcər" tankerinin dəniz-istismar sınaqları keçiriləcək. Tankerin xarici sularda istismarı nəzərdə tutulur.

Unikal dizaynı ilə seçilən və texniki göstəricilərinə görə geniş imkanlara malik olan bu gəmi Bakı Gəmiqayırma Zavodunda inşa edilmiş sayca ikinci neftdaşıyan tankerdir. Ötən ilin sonunda istismara verilmiş "Laçın" adlı ilk tanker artıq xarici sularda istismar olunur.

ASCO-nun sifarişinə uyğun olaraq zavodda daha iki eyni tipli gəminin tikinti işləri qrafikə uyğun davam edir.

Bununla yanaşı, hazırda ASCO-nun donanmaları üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı Bakı Gəmiqayırma Zavodu ilə danışıqlar aparılır. Bu isə o deməkdir ki, yaxın gələcəkdə Xəzərdə və dünya sularında yeni-yeni gəmilərimiz üzərək Azərbaycanın iqtisadi gücünün daha da artmasına xidmət edəcək.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

## Bəhrəmtəpə-Biləsuvar avtomobil yolu yenidən qurulub



Ölkə daxilində avtomobil yollarının yüksək keyfiyyətlə qurulması əsas hədəflərdən biridir. Çünki keyfiyyətli yollar bölgədə təkcə turizm üçün deyil, eyni zamanda kənd təsərrüfatı və digər sahələrin inkişafı üçün də təkan verir. Bu baxımdan Bəhrəmtəpə-Biləsuvar avtomobil yolunun təmirinin yekunlaşmasının əhəmiyyəti böyükdür.

Dövlət başçısının fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin bu yolu bərpa etməsi regionlar, o cümlədən İmişli və Biləsuvar rayonları arasında iqtisadi əlaqələri genişləndirəcək, kənd təsərrüfatının inkişafına təkan verəcək, nəqliyyat xərclərini azaldacaq. Bununla yanaşı, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərini əlaqələndirən yol tranzit xidmətlərinin səmərəliliyini artıracaq.

Bəhrəmtəpə-Biləsuvar avtomobil yolunun uzunluğu 60 kilometrdir. Layihə üzrə mövcud yol oxu saxlanılmaqla yolun II texniki dərəcəyə təkmilləşdirilməsi işləri aparılıb. Ümumi eni 15 metr olan yola 7,5 metr enində hərəkət hissə və hər bir istiqamət üzrə 3,75 metr enində çiyinlər daxildir.

Layihə çərçivəsində həmçinin yolboyu mobilizasiya işləri aparılıb, tikinti sahəsi təmizlənib, köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yolun köhnə və yararsız qruntu qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirmə, həmçinin qaya dolğusu və genişləndirmə işləri aparılmaqla yeni yol yatağı inşa olunub.

Torpaq işlərinin ardınca yol əsasının inşasına başlanılıb. Yol əsası optimal qırmadaş və qum-çınqıl qarışıqlarıdan istifadə olunmaqla salınıb. Buna paralel olaraq yol əsası hazırlanan hissələrin asfaltlanması işləri aparılıb, yola 3 laydan ibarət yeni asfalt-beton örtüyü döşənib.

60 kilometrlik yolboyu 3 avtomobil körpüsü də inşa olunub. Körpülərin uzunluqları 28 və 32,5 metrdir. Yolun 3,7-ci kilometrində - Araz çayı üzərində yerləşən 230 metrlik mövcud avtomobil körpüsü də təmir olunaraq gücləndirilib.

Bundan başqa, köhnə suötürücü boruların yenilənməsinə və yenilərinin inşasına ehtiyac olduğu üçün 61 mövcud boru yenilənib, 39 dairəvi boru və 14 düzbucaqlı su keçidinin inşası yekunlaşdırılıb. Layihəyə uyğun olaraq, yolboyu 8 nöqtədə yeraltı keçid inşa edilib, zəruri yerlərdə 28 avtobus dayanacağı quraşdırılıb.

Bütün işlər texnoloji ardıcıllığa uyğun və yüksək keyfiyyətlə aparılıb.

## AMB Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinin davamlı inkişafına xüsusi önəm verir

Prezidentin ölkədə əhalinin və biznesin maliyyə resurslarına çıxışının genişləndirilməsi və kənd yerlərində maliyyə inklüzivliyinin artırılması ilə bağlı verdiyi tapşırıqlardan irəli gələrək Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən bir sıra strateji layihələr və ardıcıl işlər həyata keçirilir.



Bu istiqamətdə aparılan tədbirlər çərçivəsində iqtisadi subyektlərin daşınar əmlakı girov qoyaraq kredit almaq imkanlarının genişləndirilməsi məqsədilə 2018-ci ildə istifadəyə verilmiş Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestri (DƏYDR) daha təkmil texnoloji platformada yenidən qurulmuşdur. Yenilənmiş DƏYDR müasir texnoloji və təhlükəsizlik tələblərinə tam cavab verməklə yanaşı, onun digər dövlət informasiya sistemləri ilə inteqrasiya edilməsi imkanları yaradılmışdır.

İqtisadi subyektlərin yaradılmış DƏYDR platformasından aktiv istifadəsini təşviq etmək üçün xidmət haqlarının əhəmiyyətli dərəcədə aşağı salınması istiqamətində mövcud hüquqi-normativ bazaya dəyişikliklər edilmişdir. "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği"nin təsdiq edilməsi haqqında" Prezidentin 2018-ci il 29 mart tarixli fərmanına Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 sentyabr tarixli fərmanı ilə dəyişikliklər təsdiq edilmişdir. Nəticədə DƏYDR-də xidmət haqları yüklülük bildirişinin daxil edilməsi üçün 10, yüklülüyə dəyişiklik bildirişinin daxil edilməsi üçün 6 və axtarışın nəticələrinə dair kağız daşıyıcıda təsdiqlənmiş hesabatın verilməsi üçün 6 manatdan müvafiq olaraq 2, 1 və 1 manata endirilmişdir.

